www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-15 (1776) 16 sentyabr 2023-cü il



# Təntənəli Bilik Günü mərasimi keçirilib

**Rektor, professor Gəray Gəraybəyli: Yüksək bal toplayan tələbələrin ATU-nu seçməsi universitetin yüksək nüfuzunun göstəricisidir**

səh. 2

## Səhiyyə Nazirliyində Pakistan universitetinin rəhbərliyi ilə görüş keçirilib

səh. 2

## ATU-da ikinci ali təhsil almaq istəyənlərin sayı xeyli artıb

səh. 3

## THİK-in tərkibində 15-ə yaxın klub fəaliyyət göstərir

səh. 5



## Hər iki universitet üçün faydalı əməkdaşlıq

ATU rektorunun Karamanoğlu Mehmetbey Universitetinin nümayəndə heyəti ilə görüşü keçirilib

səh. 2

## Fakültələrdə I kurs tələbələri ilə görüşlər təşkil olunub

*Onlara tədris prosesi və universitetin ictimai-sosial həyatı ilə bağlı zəruri məlumatlar verilib*

səh. 3

## Fizioterapevtlərə hər zaman ehtiyac var

*Nurlana Əliyeva: Vətən müharibəsi və ondan sonrakı dövrlərdə 800-dən çox yaralıya xidmət göstərmişik*

səh. 8



## Kursantlar Vətənə sədaqət andı içiblər

Hərbi tibb fakültəsində təhsilin yüksək səviyyədə təşkil edilməsi üçün hər cür şərait var

səh. 3

## Səhiyyə Nazirliyində Pakistan universitetinin rəhbərliyi ilə görüş keçirilib



**Səhiyyə Nazirliyində Pakistanın Rifah Beynəlxalq Universitetinin (RIU) kansleri Həsən Məhəmməd Xanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev iki qardaş ölkə arasında bütün sahələrdə əməkdaşlığın nümunəvi olduğunu vurğulayıb. Səhiyyə siyasəti və ictimai səhiyyə sahəsində əməkdaşlıq məsələlərinə toxunan Teymur Musayev qeyd edib ki, bu istiqamətdə də qarşılıqlı fəaliyyət beynəlxalq müstəvidə - Ümumdünya Səhiyyə Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı səhiyyə nazirlərinin əməkdaşlığı çərçivəsində həyata keçirilir: "Təhsil sahəsində də ikitərəfli əlaqələr dinamik inkişaf edir və pakistanlı tələbələrin ali tibb təhsili alması üçün Azərbaycanda bütün lazımi şərait yaradılıb".

Nazir, həmçinin Azərbaycan Tibb Universitetinin Pakistanın Rifah Beynəlxalq Universiteti ilə fəal əməkdaşlıq etdiyini qeyd edib. Onun sözlərinə görə, bu ilin oktyabrında Bakıda iki universitetin birgə təşkilatçılığı ilə dünyanın müxtəlif ölkələrindən olan mütəxəssisləri vahid platformada birləşdirən Tibb təhsili üzrə beynəlxalq konfrans da baş tutacaq.

Çıxışının sonunda Azərbaycanın səhiyyə naziri gələcəkdə əməkdaşlığın daha da uğurla inkişaf etdiriləcəyinə əmin olduğunu bildirib.

Öz növbəsində Həsən Məhəmməd Xan vurğulayıb ki, Azərbaycan Pakistan xalqının qəlbində xüsusi yeri olan ölkədir. RIU-nun rektoru bildirib ki, ölkələrimiz arasında səhiyyə sahəsində sıx əməkdaşlıq əlaqələri mövcuddur. O, Tibb təhsili üzrə ilk beynəlxalq konfransın (International Conference on Medical Education – ICME) 2009-cu ildə Pakistanın paytaxtı İslamabadda baş tutduğunu qeyd edib.

ATU-nun rektoru, professor Gəray Gəraybəylinin də iştirak etdiyi görüşdə səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və gücləndirilməsinin perspektivləri də müzakirə olunub.

## Rektorlar beynəlxalq konfransa hazırlığı müzakirə ediblər

**ATU tərəfindən görülən işlər yüksək qiymətləndirilib**



**Oktyabrın 7-10-da Azərbaycan Tibb Universitetində Tibb təhsili üzrə beynəlxalq konfrans (International Conference on Medical Education – ICME) keçiriləcək. Dünyanın müxtəlif ölkələrindən alim və ekspertləri paytaxtımıza toplayacaq bu tədbir ATU və Pakistanın Rifah Beynəlxalq Universitetinin (RIU) birgə təşkilatçılığı ilə baş tutacaq.**

"ICME-2023 Bakı" toplantısının təşkili ilə bağlı ATU-da növbəti görüş keçirilib. Universitetin rektoru, professor Gəray Gəraybəyli RIU-nun kansleri Həsən Məhəmməd Xanla görüşündə tədbirə hazırlıq işləri haqqında ətraflı məlumat verib. Görülən işləri yüksək qiymətləndirən tərəflər tədbirin uğurla keçəcəyindən əminliklərini bildiriblər. Toplantı ilə bağlı təbliğat işlərinin aparılmasının əhəmiyyəti xüsusilə vurğulanıb.

Qeyd edək ki, ICME konfransının əsas məqsədi tibb təhsili üzrə ekspertlər və pedaqoqları bir araya gətirməklə, bu sahədəki son yenilikləri və standartları müzakirə etmək, təcrübə mübadiləsi aparmaq və bu sahədə beynəlxalq platforma yaratmaqdan ibarətdir.

## Pakistan nümayəndə heyəti Tədris Cərrahiyyə Klinikasında olub

**Azərbaycanda səfərdə olan Pakistanın Rifah Universitetinin nümayəndə heyətinin üzvləri Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikası ilə tanış olublar.**

Klinikanın direktoru, dosent Cavid Paşayev qonaqlara tibb müəssisəsinin fəaliyyət istiqamətləri, burada tələbələr və rezidentlərin təcrübə toplaması üçün yaradılan şərait, eyni zamanda müasir müalicə mexanizmlərinin tətbiqi haqqında məlumat verib. Ziyarət zamanı Rifah Univetsiteti ilə həm tədris, həm də klinik fəaliyyət yönündə qarşılıqlı əməkdaşlıq perspektivləri müzakirə olunub.

Qonaqlar klinikanın kollektivi ilə də söhbət edərək, onlara işlərində uğurlar arzulayıblar.

# Təntənəli Bilik Günü mərasimi keçirilib

## Rektor, professor Gəray Gəraybəyli: Yüksək bal toplayan tələbələrin ATU-nu seçməsi universitetin yüksək nüfuzunun göstəricisidir

**Ölkəmizdə yeni tədris ilinin başlanması münasibətilə sentyabrın 15-də Azərbaycan Tibb Universitetində Bilik Günü təntənəli şəkildə qeyd olunub.**



Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayan mərasimdə universitetin rektoru, professor Gəray Gəraybəyli ATU ailəsinə yeni qədəm qoyan tələbələri təbrik edib və onlara təhsil müddətində uğurlar arzulayıb.

Rektor diqqətə çatdırıb ki, qeyd etdiyimiz bu Bilik Günü Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın 100 illik yubileylərinə təsadüf edir və bu hadisə ali məktəblərə qəbul olunanların xatirəsində dərin izlər buraxacaq.



Professor G.Gəraybəyli Ulu Öndərin ölkəmizdə səhiyyənin inkişafı naminə keyfiyyətli tibb təhsili üçün lazımi şərait yaradılmasına xüsusi diqqət yetirdiyini bildirib: "Məhz Ümummilli Liderin diqqət və qayğısı nəticəsində ATU-da yeni tədris binaları istifadəyə verilib, universitet klinikaları yaradılıb, həmçinin milli həkim kadrlarının dünyanın inkişaf etmiş ölkələrinin nüfuzlu tibb müəssisələrində təhsil almalarına şərait yaradılıb. Bizim bu gün qarşısında toplantı keçirdiyimiz bu möhtəşəm tədris binası da məhz Ümummilli Liderin diqqət və qayğısı sayəsində tikilib, ərsəyə gəlib".

Bilik Gününün ölkəmizdə qeyd olunmasının əsasının da məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu xatırladan rektor əlavə edib ki, bu müqəddəs ənənə elmi biliklərə, təhsilə, səhiyyəyə göstərilən dövlət qayğısı sayəsində ildən-ilə daha da möhkəmlənib. O, universitetimizdə hər bir tələbəyə xüsusi qayğı ilə yanaşıldığını, müəllimlər və tələbələr arasında səmimi münasibətin mövcud olduğunu diqqətə çatdırıb.

Professor G.Gəraybəyli respublikamızın ali məktəblərinə yüksək balla daxil olan tələbələrin sayına görə ATU-nun yenə ön mövqedə qərarlaşmasını universitetin yüksək nüfuzunun göstəricisi kimi dəyərləndirib. O bütün sahələrdə olduğu kimi, səhiyyə və təhsildə əldə edilən nailiyyətlərin də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın məqsədyönlü fəaliyyətinin nəticəsi olduğunu vurğulayıb.

Daha sonra Əczaçılıq toksikologiyası və kimyası kafedrasının müdiri, professor Eldar Qarayev çıxış edərək yeni tədris ilində həm müəllimlərə, həm də tələbələrə uğurlar arzulayıb. Qeyd edib ki, həkimlik çətin, eyni zamanda çox vacib və şərəfli bir peşədir: "Fərəhləndirici haldır ki, tibb sahəsi bütün dünyada olduğu kimi, bizim ölkəmizdə də daim inkişafdadır. Sizə tövsiyə edirəm ki, yaxşı oxumaqla yanaşı, universitetin sosial həyatında da fəal iştirak edəsiniz, tələbə təşkilatlarının işinə töhfə verəsiniz. Bu təşkilatlar asudə vaxtınızın səmərəli keçməsi üçün faydalı olacaq, eləcə də seminarların, konfransların təşkili həyatınızda böyük rol oynayacaq".

Toplantıda valideynlər adından danışan Vüqar Məmmədov övladının ölkəmizin ən nüfuzlu ali təhsil müəssisələrindən biri olan Azərbaycan Tibb Universitetinin tələbəsi adını qazanmasından sevinc hissi keçirdiyini bildirib. O, yeni dərs ili münasibətilə ATU-nun rəhbərliyinə və kollektivinə uğurlar arzulayıb, tələbələri və onların valideynlərini təbrik edib.

I Müalicə-profilaktika fakültəsinə yüksək balla qəbul olunan I kurs tələbəsi İsmayıl Əzimli bütün tələbə yoldaşlarını təbrik edərək, gələcəkdə həkim adını ləyaqətlə doğruldacaqlarına və bu müqəddəs peşəyə dərindən yiyələnəcəklərinə söz verib.



# Hər iki universitet üçün faydalı əməkdaşlıq

## ATU-da Karamanoğlu Mehmetbey Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib

**Azərbaycan Tibb Universitetində Türkiyənin Karamanoğlu Mehmetbey Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib.**

Görüşdə ali məktəblər arasında müxtəlif sahələrdə əməkdaşlıq imkanları müzakirə olunub. ATU-nun rektoru, professor Gəray Gəraybəyli son illər universitetin beynəlxalq əlaqələrinin genişləndiyini və bu məsələdə qardaş Türkiyənin ali məktəbləri ilə münasibətlərin üstünlük təşkil etdiyini bildirib. Hazırda ATU-nun bir çox Türkiyə universitetləri ilə qarşılıqlı əməkdaşlığa dair memorandumunun mövcud olduğunu vurğulayan rektor, bu əlaqələrin səhiyyənin inkişafı və tədris prosesinin təkmilləşdirilməsini əhatə etdiyini diqqətə çatdırıb.

Rektor G.Gəraybəyli ATU-da xarici ölkələrdən tələbələrin təhsil aldığını, onların arasında Türkiyədən gənclərin olduğunu da qeyd edib.

Karamanoğlu Mehmetbey Universitetinin rektoru Mehmet Gavgalı rəhbərlik etdiyi universitetin 22 min tələbəsi olduğunu vurğulayaraq, 16 illik fəaliyyəti dövründə universitetin böyük uğurlar qazandığını bildirib. Hazırda 11 fakültəsi olan universitet bu il ilk dəfə olaraq tibb fakültəsindən məzunları yola salıb. O, tibb təhsili sahəsində ATU ilə əməkdaşlığın hər iki universitet üçün faydalı olacağına inandığını deyib. Sonda iki universitet arasında əməkdaşlığın perspektivləri ilə bağlı müzakirələr aparılıb.



Görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova iştirak edirdilər.

# ATU çoxluğa yox, keyfiyyətə üstünlük verir

## Azərbaycan Tibb Universitetində ikinci ali təhsil almaq istəyənlərin sayı xeyli artıb

**ATU-nun rektoru, professor Gəray Gəraybəyli universitetimizdə ikinci təhsil almaq istəyən ali məktəb məzunları ilə görüşüb.**



Artıq bir neçə dəfədir ki, universitetimizdə ikinci təhsillə bağlı qəbul məsələlərinin müzakirə edildiyini deyən rektor, bu il formatın, qaydaların və nəticələrin fərqli olacağını bildirib: "Əvvəlki illərdə bizim klinik təhsilimizin təcrübəsi təxminən 4 il ərzində aparılırdı. Bu müddətdə ancaq Tibb Universitetinin məzunlarını qəbul edirdik. Çünki o vaxt Səhiyyə Nazirliyi tərəfindən elə bir qayda qoyulmuşdu ki, Tibb Universitetinə yalnız tibb və səhiyyə sahəsini bitirən şəxslər ikinci təhsil üçün müraciət edə bilərdi. Bu il isə yenilik ondan ibarətdir ki, qeydiyyat Təhsil Nazirliyi tərəfindən aparılır. Bu barədə məlumatı olanlar çox olduğundan, ikinci təhsil üçün müraciət edənlərin sayı da artıb, 200-ə yaxındır. Sevindirici haldır ki, təhsil proqramlarımız beynəlxalq akkreditasiyadan keçəndən sonra universitetimizə bu qədər böyük maraq var. Onu da diqqətinizə çatdırım ki, hər il bizə 500 xarici vətəndaş müraciət edirdisə, bu il müraciət edənlər 1000 nəfərdir. Amma bütün təhsil müəssisələrində olduğu kimi, universitetimizdə də müəyyən məhdudiyyətlər mövcuddur. Belə ki, bizim müəllim kontingentimiz və auditoriya fondumuz hamını qəbul etmək üçün yetərli deyil. Əslində universitet maraqlıdır ki, həm beynəlxalq əlaqələri genişlənsin, həm də maddi imkanları artsın. Lakin biz 1000 nəfər xarici tələbəyə istədikləri xidməti göstərə bilməyəcəyimizdən, qəbul da edə bilmirik".

Rektorun sözlərinə görə, müraciət edənlərin böyük əksəriyyəti IV qrup üzrə imtahan verməyən, Texniki Universiteti, İqtisadiyyat Universitetini, hətta hüquq ixtisasını bitirən şəxslərdir: "Əlbəttə, hər bir vətəndaşın seçiminə hörmətlə yanaşırıq, bu onların haqqıdır. Ancaq mövcud imkanlarımız çərçivəsində qəbul sayını azaltmağa məcburuq. Bu baxımdan, yalnız tibb və əczaçılıq elmləri üzrə təhsili olanları qəbul etməyi qərara aldıq".

Professor G.Gəraybəyli rəqabət dövründə yaşadığımızı xatırladaraq, əsas məqsədin tədrisin keyfiyyətini yüksəltmək olduğunu deyib: "Bu da bilavasitə tələbə sayından asılıdır. Məsələn, Oksford Universitetinin Tibb fakültəsində I kursda qrupda 10 nəfər olur, VI kursda müəllimlə tələbə təkbətək işləyir. Həmçinin I kursdakılarla məzun olanların say fərqi böyükdür, 50 faiz azalma gedir. Bu mənada, daha çox tələbə qəbul edərək həm maddi, həm də başqa kriteriyalar baxımından bəhrələnə bilərik. Biz isə göstərə biləcəyimiz xidmətin keyfiyyətini üstün tutaraq, daha çox tələbənin qəbulundan imtina edirik".

Universitetin elektron sistemə keçdiyini bildirən rektor, ikinci təhsil alanların I kursa qəbul olunması, dərslərdə 100 faiz əyani iştirak etməsi və ancaq ödənişli əsaslarla təhsil almasının əsas şərtlər olduğunu vurğulayıb, sualları cavablandırıb.

# Fakültələrdə I kurs tələbələri ilə görüşlər keçirilib

## Onlara tədris prosesi və universitetin ictimai-sosial həyatı ilə bağlı zəruri məlumatlar verilib

**2023-24-cü tədris ilinin başlanması ilə əlaqədar Azərbaycan Tibb Universitetinə yeni qəbul olunmuş tələbələrlə görüşlər keçirilib. Tanışlıq xarakterli görüşlərə fakültələrin dekanları, dekan müavinləri, akademik məsləhətçiləri, eləcə də tələbə həyatının sevincini yaşayan gənclərin valideynləri qatılıblar.**

ATU-ya yeni qəbul olunmuş tələbələri təbrik edərək onlara uğurlar arzulayıb. Bundan sonra fakültənin dekan müavini Aysel Həşimova tələbə adını qazanan gəncləri universitetdə fəaliyyət göstərən tələbə təşkilatlarının işi ilə tanış edib. O, ictimai təşkilatların həm də tələbələrin arzu və təkliflərini reallaşdırmağa çalışdığını, yeri gələndə müvafiq qurumlar qarşısında məsələlər qaldırdıqlarını Koordinatorlardan Fəxriyyə Məmmədova, Məhərrəm Məhərrəmov tələbələrin gələcəkdə savadlı və peşəkar həkim kimi yetişməsi üçün onların daim öz üzərlərində işləməsinin vacibliyini söyləyiblər.

Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli I kurs tələbələri ilə görüşdə fakültənin tarixi inkişaf yolundan söhbət açıb. O, son illərdə fakültədə Azərbaycan vətəndaşları ilə yanaşı, Türkiyə,





Yeni tədris ilində I Müalicə-profilaktika fakültəsinin I kursuna qəbul olunan tələbələri fakültənin dekanı, dosent Elşad Novruzov ATU ailəsinə üzv olmaları münasibətilə təbrik edib. O, ATU-nun tədris binaları, klinikaları, yataqxanaları, Elektron Tədris Sistemi, idman kompleksi, saytı, kitabxanası, həmçinin fakültənin sosial şəbəkə hesabları haqqında görüş iştirakçılarına ətraflı məlumat verib.

Görüşdə I kurs tələbələri universitetin daxili qaydaları, tədris sistemi, imtahan prosesi, ali məktəbdə son illərdə aparılan islahatlar barədə də məlumatlandırılıb.

Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva da diqqətə çatdırıb.

Yeni qəbul olunmuş tələbələri və onların valideynlərini təbrik edən II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli praktik təcrübə keçmək üçün universitet klinikalarındakı mövcud şəraitdən geniş bəhs edib. Dekan müavini Sevinc Məhərrəmova təhsil prosesi ilə bağlı ətraflı məlumat verib.

Belə bir görüş İctimai səhiyyə fakültəsinin valideyn və tələbələri ilə də olub. Fakültənin dekanı, dosent Qalina Qəniyeva, akademik məsləhətçi Nailə Məmmədova kredit sistemi, qiymətləndirmə, kredit borcu və s. barədə tələbələrə ətraflı məlumat veriblər.

İran, Suriya, Anqola, Nigeriya, Sudan, İraq, Əfqanıstan və başqa ölkələrin gənclərinin də təhsil aldığını bildirib.

Dekan və dekan müavini tələbələri geyim mədəniyyətinə, nizam-intizam qaydalarını riayət etməyə, eyni zamanda xarici dil öyrənməyə və mübadilə proqramlarında fəal iştirak etməyə çağırıblar.

Görüşlərdə tələbə dekanlar, tələbə təşkilatlarının sədrləri də iştirak ediblər. Fakültələrin nümayəndələri görüş zamanı səslənən sualları cavablandırıblar. Görüşlər bitəndən sonra tələbələr universitet şəhərciyi ilə əyani tanış olublar.

**Azərbaycan Tibb Universitetinin Elmi Tədqiqat Mərkəzinə yeni direktor təyinatı olub. Bununla bağlı keçirilən tədbirdə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli bildirib ki, elmi tədqiqat sahəsi bütün ali təhsil ocaqlarında vacib və prioritet istiqamətlərdən biridir.**



# ATU-nun Elmi Tədqiqat Mərkəzinə yeni direktor təyin olunub

Rektor xatırladıb ki, bir neçə il öncə Prezident İlham Əliyevin tapşırığı ilə bir sıra qurumlar tədqiqat müəssisələrinə çevrilib. Elm və Təhsil Nazirliyində, Azərbaycan Milli Elmlər Akademiyasında aparılan islahatlar da sübut edir ki, hazırda təhsili elmsiz təsəvvür etmək mümkün deyil: "Bizim universitetimizdə də hər zaman olduğu kimi, elm sahəsinə böyük diqqət yetirilir. Hər kəsə məlumdur ki, ATU-nun bir çox tanınmış alimləri, korifeyləri olub, hazırda da var. Onların elmi işləri, tədqiqatları, məqalələri, doktorluq dissertasiyaları həm ölkəmizdə, həm də ölkəmizdən kənarda tanınır".

Professor G.Gəraybəyli ATU-da fəaliyyət göstərən elmi-tədqiqat laboratoriyası və Elmi Tədqiqat Mərkəzinin işini yüksək dəyərləndirib. Qeyd edib ki, uzun illər ərzində universitetin elm sahəsinin əsasını məhz Elmi Tədqiqat Mərkəzi təşkil edib: "Burada çoxsahəli işlər görülüb, səhiyyənin müxtəlif istiqamətlərində elmi tədqiqatlar aparılıb. İnanıram ki, bu işlər gələcəkdə də davam edəcək. Uzun illər ərzində Mərkəzə əməkdar elm xadimi, professor Qalib Qarayev uğurla rəhbərlik edib. O, bir rəhbər kimi işinə məsuliyyətlə yanaşıb, qüsursuz işləyib. Onun məqsədyönlü fəaliyyəti nəticəsində demək olar ki, buradan hamının yolu keçib və Qalib müəllim hər kəsə köməklik göstərib. O mənə öz ərizəsi ilə müraciət etdi və daha sakit fəaliyyətlə məşğul olmaq istədiyini bildirdi. Mən də rektor olaraq, Qalib müəllimə istədiyi kafedrada professor məsləhətçisi vəzifəsini təklif etdim. O yenə də bizimlə birgə fəaliyyətini davam etdirəcək".

Rektor yeni təyin olunan direktorun da ATU ailəsinin üzvü olduğunu sevindirici hal kimi qiymətləndirib: "Bu gündən Elmi Tədqiqat Mərkəzinə rəhbərliyi ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, Histologiya, sitologiya və embriologiya kafedrasının dosenti Orxan İsayev həyata keçirəcək. Ona işlərində uğurlar arzu edirik. İnanıram ki, bu işi də müvəffəqiyyətlə aparacaq".

# Kursantlar Vətənə sədaqət andı içiblər



**ATU-nun Hərbi tibb fakültəsinin kursantlarının təntənəli andiçmə mərasimi keçirilib. Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.**

Mərasimi giriş nitqi ilə açan Hərbi tibb fakültəsi rəisinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə baş köməkçisi, polkovnik-leytenant Yaqub Qasımov gənc kursantları təbrik edərək, ordumuzun daha da qüdrətli olması üçün onun sıralarına yeni nəfəs, yeni ruh və döyüş əzmi gətirilməsinin vacibliyini bildirib.

Valideynlər adından kursant İsrayil İsgəndərlinin babası, Azərbaycan Qarabağ müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin üzvü Xaliq İsgəndərov çıxış edərək, nəvəsinin hərbi həkim peşəsini seçməsindən qürur duyduğunu söyləyib. O, gənc kursantların Azərbaycan ordusunda hərbi həkim kimi çalışmaqla valideynlərinin başını uca edəcəklərinə əminliyini bildirib.

Kursantlar adından danışan Murad Cavadzadə hərbi and içərkən onlara nə qədər böyük və şərəfli bir iş tapşırıldığını yaxşı anladıqlarını, bu hadisənin kursantların həyatında əlamətdar bir gün kimi qalacağını deyib.

Tədbirdə yekun nitqi ilə çıxış edən Hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovniki Çingiz Əlləzov gənc kursantları hərbi andı qəbul etmələri münasibətilə təbrik edib.

Fakültənin rəisi Azərbaycan ordusunda tibb xidməti sahəsi üzrə zabit və gizir kadrları hazırlamaq kimi şərəfli və məsuliyyətli işin məhz ATU-nun Hərbi tibb fakültəsinin üzərinə düşdüyünü, fakültədə təhsilin yüksək səviyyədə təşkil edilməsi üçün hər cür şəraitin yaradıldığını diqqətə çatdırıb.

Tədbirin sonunda kursantlar təntənəli şəkildə Vətənə sədaqət andı içib, hərbi marşın sədaları altında tribuna önündən keçiblər. Andiçmə mərasimində kursantların valideynləri və doğmaları da iştirak ediblər.



# Bu il rezidentlərin sayı iki dəfəyədək artıb

## Universitetimizə üz tutan magistrantların sayı da xeyli yüksəlib

**Azərbaycan Tibb Universitetinin Rezidentura və magistratura şöbəsinə qəbul sona çatıb. Adıçəkilən şöbənin müdiri, professor Məlahət Sultanovanın verdiyi məlumata görə, ötən tədris ili ilə müqayisədə (140 nəfər) yeni tədris ilində DİM-in xətti ilə qəbul olunan rezidentlərin sayı 233 nəfər təşkil edib:**

"Onlardan 5 nəfəri portala müraciət etməyib, nəticədə 228 nəfər tibbin müxtəlif ixtisasları üzrə ATU-nun rezidenti adını qazanıb. Bir nəfər əcnəbi vətəndaş DİM-in xətti ilə qəbul olunub, 4 nəfər isə ödənişli əsaslarla ikinci təhsil almaq hüququ əldə edib. Ən yüksək bal (87) toplayan rezident Daxili xəstəliklər ixtisasına qəbul olunub. Bu il ən çox rezident Anesteziologiya-reanimatologiya (20 nəfər) ixtisası üzrə qeydə alınıb. Bundan əlavə, birbaşa müraciət edən 28 nəfər əcnəbi vətəndaşın ərizəsi müqavilə yolu ilə qəbul edilib".

Şöbə müdiri rezidentlərin kliniki istiqamətlə yanaşı, həm də elmi yönümdən yetişdirilməsi, mühazirələrin təşkili, rotasiyaların tənzimlənməsi, müvafiq seminarların bu il də davam etdirilməsi və digər aspektlərin vacibliyini söyləyib.

Onun sözlərinə görə, ötən tədris ilində universitet üzrə 35 nəfər magistrant dissertasiya işlərini müvəffəqiyyətlə müdafiə edərək magistr adını alıb: "Onlardan 9-u Klinik psixologiya, 10-u Menecment (səhiyyə sahəsi üzrə), 3-ü Əczaçılıq texnologiyası, 3-ü Əczaçılığın təşkili, 3-ü Toksikoloji kimya, 3-ü Farmakoqnoziya, 4-ü Əczaçılıq kimyası ixtisasları üzrə məzun olublar. Məzunlar arasında 1 nəfər xarici vətəndaş idi.

2023-24-cü tədris ili qəbuluna gəldikdə isə, DİM-in yolu ilə 65 nəfər plan yeri üzrə 64 nəfər qəbul olunub. Bunlardan 15-i Klinik psixologiya, 15-i Menecment (səhiyyə sahəsi üzrə), 4-ü Əczaçılıq texnologiyası, 5-i Əczaçılığın təşkili, 5-i Toksikoloji kimya, 5-i Farmakoqnoziya, 5-i Əczaçılıq kimyası, 5-i Biokimya, 5-i Mikrobiologiya ixtisasları üzrə magistrant adını qazanıblar".

Qeyd edək ki, sentyabrın 15-də - ilk dərs günündə magistrantlarla baza kafedrada görüş keçirilib. Kafedra müdirləri və əməkdaşlar magistrantlara universitetdaxili nizam-intizam qaydaları, tədris prosesi və digər mühüm məqamlar haqqında zəruri məlumat və tövsiyələr veriblər.

# ATU yeni tələbələrini qarşılayır

## Uğurla başa çatan sənəd qəbulu prosesində tələbələrin maraq dairəsi də nəzərə alınıb

**Sentyabrın 5-dən etibarən Azərbaycan Tibb Universitetinə bu il daxil olan tələbələrin sənədlərinin qəbuluna start verilib. Valideynləri və yaxınları ilə universitetə təşrif gətirən I kurs tələbələri olduqca sevincli görünür. Niyə də sevinməsinlər? Axı onlar ölkənin ən nüfuzlu universitetlərindən biri olan Azərbaycan Tibb Universitetində təhsil almaq hüququ əldə ediblər.**



Universitetin bütün fakültə dekanları, dekan müavinləri, akademik məsləhətçi, tələbə dekanları, Tələbə Həmkarlar və Tələbə Gənclər təşkilatlarının sədrlərinin birgə iştirakı ilə keçirilən sənədlərin qəbulu prosesini izlədik.

Universitetin Tədris Departamentinin rəhbəri, dosent Kamandar Yaqubov prosesə nəzarət edirdi. Onun bildirdiyinə görə, tələbə olmaq hüququ qazananlar ilk öncə Elm və Təhsil Nazirliyinin portalında qeydiyyatdan keçirlər. Daha sonra sənədlərini universitetə təqdim edirlər: "Bu ildən başlayaraq tələbələrə buklet təqdim olunur. Bukletdə universitet, dekanlıq, dekanlığın heyəti, balların hesablanması və tələbə üçün vacib olan digər məqamlar öz əksini tapıb.

2023-2024-cü tədris ilində tibb ixtisasında plan yeri 550-dən 600-ə, stomatologiyada 70-dən 100-ə, ictimai səhiyyədə 70-dən 80-ə, tibb bacısı işində 40-dan 60-a, əczaçılıqda 70-dən 80-ə artırılıb. Sevindirici haldır ki, plan yerlərimiz dolub".

Tələbələr bizimlə söhbətlərində sənədlərin qəbulu prosesinin təşkilindən razılıq edirlər. Əksəriyyəti öz ixtisaslarını sevərək seçdiyini deyir.

98 saylı Kəlbəcər məktəbini bitirən Turani Məhərrəmli 684.2 bal toplayıb. Gələcəyin cərrahı olmaq istəyir. Zaqatala şəhər Ş.Qurbanov adına 3 saylı orta məktəbi bitirən Nəzrin Məmmədova 659.9 bal toplayıb. Tibb ixtisası üzrə təhsil alacaq. Kimya-biologiya təmayüllü respublika liseyini bitirən Xumar Feyziyeva isə 564 balla Stomatologiya fakültəsinə daxil olub. Arzusu gələcəyin stomatoloqu olmaqdı.

Onu da qeyd edək ki, bu il prosesin daha da asanlaşdırılması məqsədilə fakültələr üzrə sənəd qəbulu fərqli məkanda - ATU şəhərciyində aparılıb. Sənəd qəbulu zamanı tələbələrin yaradıcı bacarıqları və maraq dairələri də nəzərə alınıb. Belə ki, musiqi qabiliyyəti, idmana həvəsi olan tələbələr üçün xüsusi guşə yaradılıb.

Biz də öz növbəmizdə, universitetimizə daxil olan tələbələri təbrik edir, gələcəyin savadlı, peşəkar həkimləri olmalarını arzu edirik.



# Təcili tibb kafedrasının ilk mühazirəsi təqdim olunub

**Azərbaycan Tibb Universitetində yeni yaradılan Təcili tibb kafedrasının sentyabrın 15-də ilk mühazirəsi keçirilib. Kafedranın müdiri, dosent Nadir Zeynalovun təqdimatında ilk mühazirəni I Müalicə-profilaktika fakültəsinin IV kurs tələbələri dinləyiblər.**

Təqdimatdan öncə yeni kafedranın yaranması barədə "Təbib" qəzetinə məlumat verən N.Zeynalov bildirib ki, 2021-ci ilin dekabrında Böyük Elmi Şuranın qərarı ilə Təcili tibb kafedrasının təşkilinə hazırlıq işlərinə başlanılıb. Onun sözlərinə görə, bu kafedranın yaranmasında Ümumdünya Səhiyyə Təşkilatının ölkəmizdəki nümayəndəliyinin böyük xidməti olub. Belə ki, həmin nümayəndəliyin Azərbaycanda həyata keçirdiyi layihələrin istiqamətlərindən biri də təcili tibbi yardım sisteminin təkmilləşdirilməsi idi: "Həm layihə çərçivəsində, həm də kafedranın yaradılmasına hazırlıq mərhələsində kafedrada çalışacaq müəllimlər seçildi və Türkiyənin aparıcı universitetində ilyarım ərzində hər dəfə 1 ay olmaqla, üç dəfə nəzəri və praktik təlim keçdilər. Bu sahədə böyük təcrübəsi olan Türkiyənin aparıcı mütəxəssisləri kafedranın yaradılmasına konsultativ yardım göstərdilər. Eyni zamanda türkiyəli professorlar Azərbaycana gələrək, öz təcrübələrini Təcili tibb kafedrasında işləyəcək müəllimlərlə bölüşdülər".

Təcili tibb sahəsində yeni strukturların yaradılması və mütəxəssislərin hazırlanmasının artıq zərurətə çevrildiyini söyləyən kafedra müdiri, proqramların dünyanın qabaqcıl ali təhsil müəssisələrinin tədris proqramlarına uyğunlaşdırılması baxımından Təcili tibb kafedrasının təşkilinin məqsədəuyğun hesab edildiyini vurğulayıb.

# Universitetimizlə tanışlıq günü

**Sentyabrın 12-də Azərbaycan Tibb Universitetində Tələbə Gənclər Təşkilatının (ATU TGT) təşkilatçılığı ilə "ATU ilə tanışlıq günü" adlı tədbir keçirilib. TGT-nin idarə heyətinin üzvləri bu il universitetimizə qəbul olunan I kurs tələbələri ilə görüşüblər.**



Görüş zamanı tələbələrə ümumilikdə universitet, eləcə də təşkilatın vəzifələri və nəzdində fəaliyyət göstərən klublar haqqında ətraflı məlumat verilib. Eyni zamanda onların sualları cavablandırılıb, arzu və təklifləri dinlənilib. Daha sonra tələbələr universitetin tədris korpusları ilə əyani tanış olublar.

TGT-nin sədri Məhəmməd Məmmədovun bildirdiyinə görə, tələbələrin öz fikirlərini rahat, sərbəst şəkildə ifadə etməsi üçün görüşə universitet rəhbərliyi və dekanlıqlardan nümayəndələr dəvət olunmayıb.

**Yeni tədris ilinin başlanması ərəfəsində əcnəbi vətəndaşların universitetimizə qəbulu qaydalarında hansısa dəyişiklik olub-olmaması ilə maraqlandıq.**

# Əcnəbi abituriyentlərə dil seçimi imkanı yaradılır

## ATU-nun tələbəsi olmaq istəyənlərlə müsahibəni kimya və biologiya üzrə mütəxəssislərimiz aparır

Suallarımızı Əcnəbi təhsilalanlarla iş üzrə dekan, baş müəllim Natiq Bayramov cavablandırıb. O, əcnəbi abituriyentlərin universitetimizə bir neçə ildir ki, skayp-müsahibə yolu ilə qəbul olunduğunu, bu prosesin indi də eyni qaydada davam etdiyini deyib: "İyul ayının birinci həftəsindən etibarən sənəd qəbuluna başlanılıb. Sənəd qəbulu portal.edu.az portalı üzərindən aparılır. Tələbələr həmin saytda qeydiyyatdan keçdikdən sonra universitetin özü tərəfindən yaradılmış xüsusi komissiya ilə skayp görüşməsi keçirilir. Skayp görüşməsi 2 formada aparılır. Eyni zamanda həm hazırlıq şöbəsinə, həm də birbaşa birinci kursa qəbul keçirilir. Məsələn, Hindistanda və Pakistanda dövlət dili ingilis, Rusiyada isə rus dilidir. Həmin ölkələrin abituriyentləri birbaşa I kursa qəbul şansı əldə edir, skayp görüşməsindən sonra universitetin Əcnəbi təhsilalanlarla iş üzrə dekanlığına müraciət edərək sənədlərini verirlər. Daha sonra təhsil haqlarını ödəyərək birbaşa I kursa qəbul olunurlar. Digər ölkələrin abituriyentləri isə iyul ayının 1-ci həftəsindən başlayaraq, təxminən dekabr ayının 15-ə qədər yuxarıda göstərilən qaydada qəbuldan keçərlərsə, hazırlıq şöbəsinə qəbul olunacaqlar. Hazırlıq şöbəsində 6 ay müddətində oxuduqdan sonra isə universitetdaxili imtahan verərək I kursda oxumaq şansı qazanırlar".



Komissiya tərəfindən aparılan sorğunun formatına da toxunan dekan qeyd edib ki, müsahibəni kimya və biologiya üzrə mütəxəssislərimiz aparır. Bu fənlərə dair əsasən orta məktəb səviyyəsində suallar verilir.

N.Bayramov bəzi abituriyentlərin ingilis dili biliklərinin çox aşağı səviyyədə olmasına baxmayaraq, ingilis bölməsində oxumaq istədiklərini, belə hallarda onlarla izahat işi apardığını söyləyib: "Sonda özləri də başa düşür ki, ingilis dilində oxuya bilməyəcəklər. Həmin abituriyentlərə Azərbaycan bölməsinə müraciət etməyi məsləhət görürük. Onlara dil seçimi imkanı yaradırıq. Türkiyə və İran vətəndaşları ikinci dil kimi Azərbaycan dilini çox yaxşı bilirlər. Bəzən onlar düşünürlər ki, ingilis dili bölməsində bir üstünlük var. Bu səbəbdən də daha çox həmin bölmədə oxumaq istəyirlər. Anlayanda ki burada heç bir üstünlük yoxdur, eyni diplomdur, sadəcə təhsil ingilis dilindədir, o zaman fikirlərini dəyişirlər".

Dil biliklərinin də suallarla yoxlanıldığını deyən dekan, əsas kriteriyalara aydınlıq gətirib. Onun sözlərinə görə, abituriyent ilk növbədə özünü ingilis dilində təqdim etməyi bacarmalıdır. Başqa məsələlər də nəzərə alınır. Bəzi abituriyentlərin isə dil bacarığı üzrə sertifikatları var. Onlar həmin sertifikatları özlərinin şəxsi kabinetlərinə yükləyirlər. Hətta hazırlıq dərəcəsindən asılı olaraq, bəziləri ingilis dili fənnindən azad edilə bilər. Amma abituriyentin dil bacarığı yüksək, tibbi bilikləri isə çox aşağıdırsa, yenə qəbuldan kənarda qalır".

# THİK-in tərkibində 15-ə yaxın klub fəaliyyət göstərir

## Tələbə Həmkarlar İttifaqı Komitəsi yeni qəbul olunmuş tələbələrlə ənənəvi görüşə hazırlaşır

**ATU-nun sosial-ictimai həyatında Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) xüsusi yeri var. Tələbələrin karyera imkanlarının genişlənməsi, asudə vaxtlarının səmərəli təşkili, onların bilik və bacarıqlarının artırılması istiqamətində tədbir və layihələr həyata keçirən komitəyə II Uşaq xəstəlikləri kafedrasının assistenti Qoşqar İsmayılov rəhbərlik edir.**



O, komitədə fəaliyyətə başladığı ötən il-yarım müddətdə görülən işlər barədə "Təbib" qəzetinə açıqlama verib. Komitənin tərkibində 15-ə yaxın klubun aktiv fəaliyyət göstərdiyini bildirərək qeyd edib ki, əsas yeniliklərdən biri də "Conversation club" layihəsinin həyata keçirilməsidir.

Layihə müddətində tələbələr üçün hər həftə peşəkar müəllimlərlə "danışıq günləri" təşkil olunub. Bundan əlavə, İntellektual Oyunlar Klubunun üzvlərindən "Sinaps" komandasının təşkilatçılığı ilə "Nə? Harada? Nə zaman?" oyunu üzrə tələbələrarası "Hippokrat" kuboku turniri keçirilib. "Sinaps" komandamız "Heydər Əliyev İli"nə həsr olunmuş "Qurtuluş kuboku"nda da uğurlu nəticə göstərərək, 15 komandanın qatıldığı yarışda I yerə layiq görülüb. "Flaşmob" komandası isə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş maraqlı flaşmob təqdim edib.

Tələbələrin vaxtaşırı peşəkar teatrlara aparıldığını, Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən Teatr Klubu üzvlərinin hazırladığı "Göz həkimi", "Dörd divar arasında" tamaşalarının böyük anşlaqla keçdiyini deyən komitənin sədri, xeyriyyə tədbirlərindən də söz açıb. Bildirib ki, fəal tələbələr Milli Hematologiya və Transfuziologiya Mərkəzini ziyarət ediblər. Xeyriyyə tədbiri zamanı mərkəzdə müalicə alan uşaqlar üçün şənlik təşkil olunub, hədiyyələr təqdim edilib. Eləcə də THİK-in təşəbbüsü və təşkilatçılığı ilə talassemiyadan əziyyət çəkən uşaqlara Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının əməkdaşları tərəfindən xoş bir gün yaşadılıb.

Onun sözlərinə görə, "Hilal" yardım cəmiyyətinin kimsəsizlər evində müayinə xarakterli görüşü də olub: "Uşaq sığınacağında baş tutan görüş zamanı sığınacaq sakinləri pediatr və fizioterapevtlər tərəfindən müayinə edilib. Eyni zamanda "Leykemiya ilə Mübarizə" İctimai Birliyinin tərəfdaşlığı ilə "Leykemiya ilə mübarizədə ümid olaq" adlı görüş keçirilib. Həkim komandamız, rezidentlər və yuxarı kurs tələbələrimiz bağçalarda müayinələr aparıb, cəmiyyətin həssas təbəqəsi olan şəhid ailələrinə, qazilərə, onların övladlarına yardım göstərib. Həmçinin valideyn himayəsindən məhrum olmuş imkansız tələbələrə hər semestr əlavə yardım verilib. Qan yaddaşımızı möhkəmləndirmək məqsədilə 20 Yanvar faciəsinə, Xocalı soyqırımına həsr olunmuş müxtəlif formatlı tədbirlər hazırlanıb".

Şahmat yarışlarının, natiqlik və "İşarət dili" təlimlərinin, ATU Debat Klubunun daxili turnirlərinin də yüksək səviyyədə keçdiyini xatırladan Q.İsmayılov, Zəfər Günü ilə əlaqədar keçirilən silsilə tədbirlərdən də danışıb. ATU Tələbə Həmkarlar İttifaqı Komitəsi tərəfindən vətənpərvərlik ruhunda çəkilmiş və 8 Noyabr - Zəfər Gününə həsr edilmiş "Zəfər səsi" filminin tələbələrdə qələbə əhval-ruhiyyəsini daha da yüksəltdiyini vurğulayıb.

Q. İsmayılov komitənin nəzdində "Yeni kitab" klubunun yaradıldığını, burada bütün tələbələrin istifadə edə biləcəyi kitabların olduğunu diqqətə çatdırıb.

Bu ilin yayında keçirilən Azərbaycan Pediatrlar Assosiasiyasının 41-ci milli qurultayında ATU THİK-in rolundan da danışan komitənin sədri, orada 3 rezidentimizin ilk dəfə spiker olaraq həkimlərlə, alimlərlə, hətta xaricdən gələn qonaqlarla birlikdə çıxış etdiyini söyləyib: "Onlara beynəlxalq sertifikatlar verildi. Hansı ki, Azərbaycanda bu vaxtadək beynəlxalq pediatrik sertifikat verilməmişdi. Bundan əlavə, qeydiyyat işlərində diktor kimi çıxışda da ATU THİK-də çalışan aktiv tələbələrimizə üstünlük verdik".

Hər il universitetimizə yeni qəbul edilən I kurs tələbələri ilə tanışlıq xarakterli görüş keçirildiyini bildirən THİK sədri vurğulayıb ki, bu görüş zamanı onların maraq dairəsi öyrənilir, həvəs göstərdikləri klublara, dərnəklərə cəlb olunmaları üçün söhbət aparılır. ATU THİK haqqında ətraflı məlumatlandırılan tələbələr gələcəkdə icra olunacaq layihələr və planlaşdırılan işlər barədə fikirlərini bölüşürlər.

**Arif MƏMMƏDLİ**

**Bu günlərdə ATU-nun İctimai fənlər kafedrasının dosenti Elbrus Sadıqovun "Ulu Öndər Heydər Əliyev və Azərbaycan gəncliyinin inkişaf strategiyası" adlı elmi məqaləsi Türkiyənin Akademik Tarix və Düşüncə Dergisi məqalə toplusunda dərc olunub.**




# Ulu Öndər haqda elmi məqalə qardaş Türkiyə mətbuatında

Qeyd edək ki, bu jurnal türk və ingilis dillərində nəşr olunan, beynəlxalq statusa malik məqalələr toplusudur.

Məqalədə gənclərin cəmiyyətdə ictimai-siyasi fəallığını artırmaq üçün həyata keçirilən dövlət proqramının tətbiqindən və idarəetmə orqanlarında gənc mütəxəssislərə üstünlük verilməsindən bəhs edilir. Qazanılan nailiyyətlərin Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş gənclər siyasətinin uğurlu nəticəsi olduğu vurğulanır. 1993-cü ildə xalqın istəyi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyevin diqqət yetirdiyi mühüm istiqamətlərdən biri də gənclərlə iş olmuşdur. Həyata keçirilən gənclər siyasətinin başlıca məqsədi milli dəyərlərə söykənən, vətəninə, xalqına bağlı olan müasir düşüncəli gənc nəslin formalaşması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə istifadə edilməsi idi. Bu məqamlar məqalədə xüsusilə araşdırılıb.

# Əməkdaşımız dünya miqyaslı konqresdə ölkəmizi təmsil edib

**Universitetimizin I Cərrahi xəstəliklər kafedrasının əməkdaşı, tibb üzrə fəlsəfə doktoru Taryel Ömərov bariatrik cərrahiyyə üzrə dünya miqyaslı konqresdə ölkəmizi təmsil edib.**




Tanınmış cərrah Beynəlxalq Piylənmə və Metabolik Xəstəliklər Cərrahiyyəsi Federasiyasının (IFSO) XXVI toplantısında təqdimatla çıxış edib. Cərrahların beynəlxalq təşkilatı olan IFSO dünyanın müxtəlif ölkələrindən yüzlərlə mütəxəssisi, 70-dən çox milli təşkilatı özündə birləşdirir. İtaliyanın Neapol şəhərində keçirilən konqresdə bariatrik cərrahiyyənin pionerləri sayılan mütəxəssislər, beynəlxalq aləmdə tanınan alimlər iştirak ediblər. ATU əməkdaşı toplantıdakı çıxışı zamanı iştirakçılara Azərbaycan üzrə statistika haqda məlumat verib.

T.Ömərovun sözlərinə görə, artıq 4 ildir ki, ölkəmizdə aparılan bariatrik-metabolik cərrahiyyə əməliyyatları beynəlxalq statistikaya daxil edilir.

Xatırladaq ki, T.Ömərova məxsus laparoskopik bariatrik cərrahiyyə əməliyyatının yeni modifikasiyası - "Aşırı piylənməsi olan xəstələrdə bariatrik-metabolik cərrahi müalicənin optimallaşdırılması" metodu üçün Avrasiya Patent Təşkilatından (EPO) patent alınıb, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (WIPO) tərəfindən Beynəlxalq İdeya Müəllifliyi kimi seçilib.

Qeyd edək ki, ATU-nun adı 2021-ci ildən etibarən İFSO-nun Qlobal Reyestrinə daxildir. İllik hesabat şəklində dərc olunan bu reyestrdə inkişaf etmiş dövlətlərdə bariatrik cərrahiyyə sahəsində aparılan əməliyyatların, qeydə alınan və müalicə edilən xəstəliklərin dəqiq sayı, dürüstlük əmsalı əks olunur.

**Nadir və məhv olmaq təhlükəsi ilə üzləşmiş növlərin qırmızı və çəhrayı siyahılarının yaradılması, qiymətləndirmənin kateqoriya və kriteriyalarının müəyyən edilməsi, yüksək risk altında olan növlərin təsnifləşdirilməsi üçün Beynəlxalq Təbiəti Mühafizə İttifaqı (IUCN) tərəfindən işlək bir sistem qurulub. Beynəlxalq miqyasda bu cür siyahların hazırlanması, həmçinin kateqoriya və kriteriyaların dəqiqləşdirilməsi və yenilənməsi üçün Qırmızı sorğu kitablarından istifadə edilir.**




# "Qırmızı Kitab"ın hazırlanmasında ATU-nun professoru da iştirak edib

"Qırmızı Kitab"lar nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növləri, habelə onların mühafizəsi və bərpası üçün zəruri tədbirlər haqqında illüstrasiya məlumat toplusunu özündə əks etdirən rəsmi dövlət sənədləri kimi qəbul olunur. "Qırmızı Kitab" canlı təbiəti qorumağın xəbərdarlıq vasitəsi kimi də mühüm əhəmiyyətə malikdir.

2023-cü ildə Azərbaycan Respublikasının "Qırmızı Kitab"ının III nəşri dərc edilib. Hələ 2019-cu ildə bu nəşrin hazırlanması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən elmi heyət, işçi qrupları və fəaliyyət proqramı müəyyən edilmişdi. "Qırmızı Kitab"ın əsas istiqaməti nadir və nəsli kəsilməkdə olan bitki, heyvan və göbələk növlərinin müəyyən edilməsi, sayları və arealının təyini, onların qiymətləndirilməsi əsasında hərtərəfli məlumatların verilməsi, növlərin mövcud və təklif olunan mühafizə və bərpa üsullarının göstərilməsidir. Bu istiqamətlər həm qlobal, həm də ayrı-ayrı regionlar üzrə müəyyən olunur.

Qafqaz regionu və bütövlükdə Avropa üzrə ən zəngin biomüxtəliflik mərkəzlərindən biri sayılan Azərbaycan Respublikasında nadir və nəsli kəsilmək təhlükəsində olan növlərin və onların yaşayış mühitlərinin mühafizəsi üçün təklif edilən və görülən tədbirlər hər zaman dövlətin dəstəyi, diqqət və qayğısı ilə əhatə olunub. Bu tədbirlərdən ən mühümü ölkə ərazisində nadir və nəsli kəsilmək təhlükəsində olan vəhşi heyvan, yabanı bitki və göbələk növlərinin funksional vəziyyəti haqqında rəsmi dövlət sənədi kimi Azərbaycan Respublikasının "Qırmızı Kitab"ın hazırlanması və nəşri hesab edilə bilər.

"Qırmızı Kitab"ın III nəşrinin hazırlanmasında AMEA, Elm və Təhsil Nazirliyinin Botanika və Zoologiya institutları, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları, həmçinin ATU-nun Farmakoqnoziya kafedrasının müdiri, professor Cavanşir İsayev də iştirak edib. "Qırmızı Kitab"ın hazırkı nəşrində nadir və nəsli kəsilmək təhlükəsi olan 460 flora növü (423 bitki: 383 ali, 15 ali sporlu, 6 mamır, 14 şibyə, 5 yosun və 37 göbələk) və 241 fauna növü (152 onurğalı və 89 onurğasız) öz əksini tapıb.

Professor C.İsayev Azərbaycan ərazisində nadir bitki növlərinin dəqiqləşdirilməsi, yayılma sahələrinin müəyyən edilməsi və onların mühafizəsinin təşkili istiqamətində fəaliyyət göstərib.

"Qırmızı Kitab"ın III nəşri ölkəmizdə biomüxtəlifliyin qorunması, nəsli kəsilmək təhlükəsi altında olan flora və fauna növlərinin dəqiqləşdirlməsi və mühafizəsi tədbirlərinin daha da gücləndirilməsi üzrə əsas istiqamətverici sənəd kimi mühüm rola malikdir. Kitabın Azərbaycan florasında yabanı halda yayılan bitki növlərindən düzgün istifadə etmək baxımından da praktik əhəmiyyəti var.

# Yeni qiymətləndirmə metodları ekspertlərlə müzakirə olunub



**ATU-nun Tədris Cərrahiyyə Klinikasında Xəzər Universitetinin rektoru İradə Xəlilova və tibb təhsili üzrə ekspert, ABŞ Arizona dövlət universiteti ilə çalışan Francisco Gutierrez ilə görüş keçirilib.**

Görüşdə mini klinik qiymətləndirmə tapşırığı - Mini-KQT (Mini clinical evaluation exercise - Mini-CEX), PBBM - prosedur bacarıqlarının birbaşa müşahidəsi (Direct Observation of Procedural Skills- DOPS), Situasiya/klinik hala əsaslanan müzakirə (Case-Based Discussion - CbD), 360 dərəcə kimi yeni qiymətləndirmə metodları müzakirə olunub, həmçinin tapşırıq-əsaslı öyrənmə, klinik təqdimatla öyrənmə, problem-əsaslı öyrənmə, hadisə-əsaslı öyrənmə kimi yeni tədris metodları haqda fikir mübadiləsi aparılıb.

Görüşdə ATU-nun öz bazalarında iş-əsaslı təhsil və Şamaxıda icma əsaslı təhsil həyata keçirilməsinə toxunulub.

Qonaqlara 3 proqramın akkreditasiyası, eləcə də universitet kampusu (4 klinika, kafedralar və onların laboratoriyaları) və yeni təhsil proqramı haqqında məlumat verilib.

İ.Xəlilova və F.Gutierrez klinika ilə yaxından tanış olub, konsiliumda iştirak edib və I Cərrahi xəstəliklər kafedrasında olublar.

# Beyin insultunun erkən müalicəsi həyati əhəmiyyət daşıyır

## Professor Aytən Məmmədbəyli: "Hazırda insult əhali arasında əlilliyin əsas səbəblərindən biridir"

**"Beynin damar xəstəlikləri müasir tibbin ən mühüm tibbi-sosial problemi olaraq qalır. Bu da əhalinin xəstələnmə və ölüm hallarının strukturunda yüksək faiz payı, müvəqqəti əmək itkilərinin və ilkin əlilliyin əhəmiyyətli nisbətləri ilə bağlıdır". Bunu ATU-nun Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli "Təbib" qəzetinə danışarkən söyləyib.**

Onun sözlərinə görə, 2013-cü ildə dünyada təxminən 6,9 milyon insan işemik insult, 3,4 milyon insan isə hemorragik insult keçirib: "Hazırda insult əhali arasında əlilliyin əsas səbəblərindən biridir. İnsultdan xilas olanların 70-80 faizi əlil olur və onların təxminən 20-30 faizi daim kənar şəxsin köməyinə ehtiyac duyur.

2015-ci ildə ürəyin işemiya xəstəliyindən sonra insult ölüm səbəbinə görə ikinci yerdə olub və təxminən 6,3 milyon insanın həyatına son qoyub. İnsultdan sonra 30 günlük erkən ölüm 35% təşkil edir. Xəstəxanalarda ölüm nisbəti 24%, evdə müalicə olunanlarda isə 43% təşkil edir. Xəstələrin təxminən 50%-i bir il ərzində ölür".

Professor deyir ki, son illər yaşla bağlı insult halları əhəmiyyətli dərəcədə artıb. Bütün insult hallarının 2/3-i 65 yaşdan yuxarı insanlarda baş verir: "İşemik insult üçün əsas risk faktorlarına qanda yüksək xolesterin və aşağı sıxlıqlı lipoprotein, arterial hipertoniya, şəkərli diabet, ürək xəstəlikləri (aritmiya və s.), qan laxtalanma göstəricilərinin yüksək olması, oturaq həyat tərzi, piylənmə, siqaret çəkmə və TIH (tranzitor işemik həmlələr) daxildir. Serebral insult zamanı beyin toxumasında geridönməz dəyişikliklər onun başlanmasından 6 saat ərzində meydana çıxır. Bu baxımdan, beyin insultunun erkən diaqnozu və erkən müalicəsi məsələsi çox aktualdır".



İnsultun əsas əlamətlərindən söhbət açan mütəxəssis testin mahiyyəti barədə də məlumat verib: "İnsultun əsas əlamətləri yuxarı və ya aşağı ətraflarda (adətən bədənin bir yarısında) qəfil yaranan zəiflik, uyuşma, hissiyyatın pozulması, üzdə yaranan asimmetriya, nitq pozğunluqları (aydın olmayan tələffüz və s.), xəstəyə ünvanlanan sözlərin düzgün başa düşülməməsi, bir və ya hər iki gözdə qəfil yaranan görmə pozulması, yeriş çətinliyi, başgicəllənmə, tarazlığın və koordinasiyanın itirilməsi, çox şiddətli baş ağrısı və sairədir. Evdə insult diaqnozu üçün kifayət qədər sadə, lakin etibarlı bir test var. İngilisdilli ədəbiyyatda bu test FAST Face Arm Speech Test, başqa sözlə, "Face-Hand-Speech-Test" adlanır. Testdə xəstədən gülümsəməsi və ya dişlərini göstərməsi istənilir. İnsult zamanı üzün nəzərəçarpan asimmetriyası meydana gəlir. Xəstədən 5 saniyə ərzində oturmuş vəziyyətdə hər iki qolunu 90°, uzanmış vəziyyətdə isə 45° bucaq altında qaldırıb saxlamasını xahiş edin. İnsult zamanı qollardan biri düşür. Xəstədən sadə bir ifadə deməsini istəyin. İnsult zamanı xəstə bunu aydın və düzgün tələffüz edə bilmir, nitqi anlaşılmaz və çaşqın olur. İnsultun inkişafını göstərən ən azı bir simptom varsa, təngimədən təcili yardım çağırmaq lazımdır - nə qədər tez yardım göstərilsə, sağalma şansı bir o qədər çox olar".

A.Məmmədbəyli bildirir ki, insultun inkişafının qarşısının alınması onun inkişafı üçün risk faktorlarına nəzarəti əhatə edir: "Onların arasında qan təzyiqinə nəzarəti qeyd etmək lazımdır. Hipertoniyadan əziyyət çəkən insanların insult keçirmə ehtimalı daha yüksəkdir. Arterial təzyiq göstəricilərini nəzarət altında saxlamaq çox vacibdir: qan təzyiqini mütəmadi olaraq ölçün, qan təzyiqini optimal səviyyədə saxlamağa kömək edən, həkim tərəfindən təyin olunan dərmanları diqqətlə qəbul edin. Sağlam çəkini qoruyun. Artıq çəki və ya piylənmə insult riskinizi artırır".

Həkimin məsləhətinə görə, ən azı yarım saat gündəlik fiziki məşqləri əhatə edən müntəzəm fiziki fəaliyyət də lazımdır: "Xolesterol səviyyəsini azaltmaq, sağlam pəhriz saxlamaq, bu zaman tərəvəz və meyvələri rasiona daxil etmək, xörək duzundan az istifadə etmək tövsiyə olunur. İnsult keçirmiş insanlar təkrarlanan insultun qarşısını almaq üçün həkimin təyin etdiyi dərmanları düzgün qəbul etməli və mütəmadi olaraq nevroloqa baş çəkməlidirlər".

Qeyd edək ki, hazırda ATU-nun Tədris Terapevtik Klinikasının Nevrologiya şöbəsində insult və insultdan sonrakı bərpa dövründə müalicə prosesi uğurla həyata keçirilir. Burada xəstələrin lazımi diaqnostikası, müalicəsi, o cümlədən fizioterapevtik müalicəsi və reabilitasiyası üçün hər cür şərait yaradılıb.

# Yaşlı insanların qayğıları diqqət mərkəzindədir

## ATU-nun İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasında bu istiqamətdə araşdırmalar aparılır

**Uzunömürlülük ictimai sağlamlığın göstəricisidir. Bununla yanaşı, dünyada uzunömürlü insanların sayı artdıqca, səhiyyə xərcləri və iqtisadi itki də artır. Hər ölkə isə bunun öhdəsindən gələ bilmir. Bu və digər məsələlərə dair suallarımızı ATU-nun İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının professoru, tibb elmləri doktoru Rafiq Çobanov cavablandırıb.**

**- Müasir dövrdə dünyada yaşlı əhali ilə bağlı vəziyyət necədir?**

- Ümumi desək, vəziyyət o qədər də qənaətbəxş deyil. Belə ki, yaşlı əhalinin sayı yüksəlir və proqressiv artaraq hətta bəzi ölkələrdə 20%-ə çatır. Bizdə isə bu rəqəm 14-17% təşkil edir. Aydın məsələdir ki, yaşlı əhalini hərtərəfli təmin etmək üçün böyük vəsait tələb olunur. Ona görə də bir çox ölkələr çətinliklərlə üzləşir. Hətta ABŞ kimi inkişaf etmiş ölkədə bəzi ştatların rəhbərləri təklif edir ki, təqaüd alanlara pulsuz dərman, tibbi xidmət və məişət problemləri üçün vəsait verilməsin.



**- Məlumdur ki, ölkələr insanların uzunömürlülüyünə görə bir-birindən fərqlənir. Burada daha çox hansı amillərin təsiri var?**

- İlk növbədə sosial-iqtisadi vəziyyət, yaşlı əhaliyə göstərilən tibbi xidmətin səviyyəsi, onların sosial-məişət təminatı. Eləcə də yaşlı əhaliyə psixoloji dəstək vacibdir ki, onlar özlərini cəmiyyətə lazımsız hiss etməsinlər və psixoloji cəhətdən gərginlik yaşamasınlar.

**- Bəs bizim ölkəmizdə vəziyyəti necə qiymətləndirmək olar? Bu sahədə hansısa fərqli xüsusiyyətlər mövcuddur?**

- Yuxarıda dediklərimi bizə də aid etmək olar. Doğrudur, herontoloji xidmətə aid proqramlar var, bəzi yerlərdə herontoloji mərkəzlər də fəaliyyət göstərir. Amma bunlar problemi tam həll etmir və qarşıya qoyulan məqsədi reallaşdırmır. Bəzi ölkələrdə herontoloji mərkəzlər yox, ərazi bölgüsü üzrə herontoloji xidmətlər var. Yaşlı insanlara qulluq etmək üçün xüsusi işçilər hazırlanır. Ona görə də məncə, ilk növbədə keyfiyyətli monitorinq aparılmalı, yaşlı əhalinin sayı dəqiqləşdirilməli və onlara daim nəzarət olunmalıdır. Əgər ərazi üzrə qurumlar təşkil etmək mümkün deyilsə, heç olmasa poliklinikalarda onlar üçün spesifik şərait yaradılmalıdır.

Nəzərə almaq lazımdır ki, yaş artdıqca



xəstəliklər də artır. Ona görə də yaşlı insanın bir-iki həkimlə işi bitmir. Yəqin siz də müşahidə etmişiniz, yaşlılar çətinliklə, bəzən kiminsə köməkliyi ilə poliklinikaya gəlirlər. Və hər həkimin növbəsinə ayrıca dayanırlar. Eləcə də sığorta masası qarşısındakı sıxlığı yaşamalı olurlar. Yaşlı insan bunların hamısını edə bilmir, haldan düşür, əsəbləşir, bəzən sona qədər dözmür və çıxıb gedir. Ona görə də poliklinikalarda yaşlı insanlar üçün növbədənkənar qəbulun təşkili və ya xüsusi saat, ya da günün ayrılması yaxşı olardı.

Ölkəmizdə səhiyyə sahəsi ilə bağlı böyük addımlar atılır. Məsələn, diabet xəstələri üçün mərkəzlər var, bahalı dərmanlar pulsuz verilir və s. Yaşlı insanlara da onlarda ən çox rast gələnən xəstəliklərə qarşı bəzi dərmanların pulsuz verilməsi təqdirəlayiq olardı. Nəzərə almaq lazımdır ki, yaşlılar xəstəlikləri başqa cür keçirir. Cavanlara məsləhət görülən tədbirlər onlara yaramır. Və eyni vaxtda bir neçə xəstəliyin müalicəsi gedir. Ona görə də dəqiq differensasiya aparılmalıdır. Bir həkim digər həkimin təyin etdiyi dərmanları nəzərə almalıdır. Hesab edirəm ki, poliklinikalarda klinik farmakoloqun fəaliyyət göstərməsi yaxşı olardı. Onlar bir neçə həkimin təyin etdiyi dərmanları araşdırıb eyni təsirli və ya bir-birinin təsirini azaldan, antaqonist dərmanları müəyyən edərdi.

Poliklinikada herontoloqun olması, onun klinik farmakoloqla birgə işləməsi vəziyyətə müsbət təsir göstərərdi.

**- Necə düşünürsünüz, bu sahədə bütün problemləri səhiyyə xidmətlərinin təşkili kontekstində aradan qaldırmaq mümkündür?**

- Hər problemi səhiyyənin üstünə atmaq olmaz. Bu məsələyə yanaşmanı ailədən başlamaq lazımdır. Bəzi ailələrdə qocalara münasibət heç də yaxşı deyil. Xüsusilə tək yaşayan qocaların vəziyyəti acınacaqlıdır. Bəzən ailələr onların qidalanmasını nəzərə almır. Diş, protez problemi həzm pozğunluqlarına, stomatitlərə səbəb olur. Gündəlik gigiyenik qulluq çox vacibdir. Dərmanların səhv qəbul edilməməsi üçün yaddaş kartı olmalıdır.

**- Yaşlı insanlar və onların qarşılaşdığı problemlərlə bağlı kafedranızda hansı işlər planlaşdırılır?**

- Bizim kafedra bu məsələ ilə ciddi məşğul olmağa başlayıb. Hazırda statistik mərkəzlə birgə araşdırmalara başlamışıq və bəzi poliklinikaları seçmişik. TƏBİB-lə birgə belə məsələləri araşdırır və yaşlılarda ən çox rast gələnən xəstəlikləri üzə çıxarırıq. Eyni zamanda uzunömürlü insanların çox yaşamasına hansı amillərin təsir göstərdiyini müəyyənləşdiririk. Herontoloji mərkəzlə sıx əməkdaşlıq edirik. Onu da bildirim ki, kafedranın dosenti Yaqut Hacıyevanın elmi rəhbərliyi altında herontoloji problem üzrə iki magistr dissertasiyası yerinə yetirilir. Bu yaxınlarda uzunömürlü insanlarla görüşmək və onlara göstərilən tibbi xidmətin vəziyyəti ilə tanış olmaq üçün əməkdaşlarımızın cənub bölgəsinə səfəri gözlənilir. Bundan başqa, kafedramız növbəti beş illikdə herontologiya üzrə elmi proqram nəzərdə tutub. Eləcə də ötən tədris ilindən İctimai səhiyyə fakültəsində Herontologiya fənni keçilir. Arzu edərdik ki, bu fənn bütün fakültələrdə tədris olunsun. Çünki həkim qocaların təkcə xəstəliyini yox, həm də sosial problemlərini bilməlidir.

Sonda qeyd etmək istərdim ki, cəmiyyətin hər bir üzvü yaşlılara qarşı diqqətli olmalıdır. Çünki qocalıq qarşısıalınmaz bioloji prosesdir və o, hər kəsin qapısını döyəcək.

**M.ƏLƏKBƏRLİ**

# Öyrədənlərin öyrədilməsi

## Tibb və sağlamlıq elmləri təhsili kafedrasında növbəti təlimlərə start verilib

**Bütün dünyada olduğu kimi, Azərbaycanda da ənənəvi təhsildən inteqrasiya olunmuş, tələbə mərkəzli və problem əsaslı təhsil sistemlərinə keçid getdikcə sürətlənir. Azərbaycan Tibb Universitetinin gənc kafedralarından olan Tibb və sağlamlıq elmləri təhsili kafedrasının əsas fəaliyyət istiqamətlərindən biri tələbələrlə işdirsə, digəri pedaqoji heyətin fəaliyyəti ilə bağlıdır.**



Kafedranın müdiri, dosent Samir Cavadlı ötən müddət ərzində görülmüş işlərlə bağlı məlumat verib:

"Hazırda tibb təhsili sistemində tələbənin dinləyici olduğu passiv təhsil üsulları əvəzinə, tələbənin iştirakçı və yaradıcı olduğu aktiv təhsil metodları üstünlük təşkil edir. Tibb fakültəsini və ya hər hansı bir ixtisası bitirmək pedaqoq ixtisası qazanmağın göstəricisi ola bilməz. Tibb sahəsində təcrübə qazanmaq üçün təhsilə ehtiyac olduğu kimi, tibb təhsilçisi ixtisasını qazanmaq üçün də təlim prosesi lazımdır. Tibb Universitetində dərs deyən müəllim və həkimlərin əsas vəzifələrinin tədris olması təlimçinin təliminin əhəmiyyətini daha da artırır. Belə ki, tibb təhsilindəki inkişaf pedaqoq hazırlığı proqramlarının əhəmiyyətini getdikcə daha çox ön plana çıxarır.

Dünyada tibb təhsili sahəsində baş verən dəyişikliklər tibb müəllimlərinin təhsildə özlərini qiymətləndirməsi və inkişaf etdirməsi zərurətini ortaya çıxarıb. Tibb pedaqoqlarının təlim metodları və texnikaları üzrə təlim keçmələri ilə bağlı artan konsensus var. Müəllim heyətinin təhsil ehtiyaclarının qiymətləndirilməsi, bu ehtiyacların ödənilməsində prioritet hədəflərin müəyyən edilməsi (fakültənin qiymətləndirilməsi) və bu ehtiyacları qarşılayaraq daha yaxşı tibb müəllimi olmaq prosesində effektiv təlim proqramlarının yaradılması (fakültə inkişafı) xüsusilə son 20-30 ildə böyük əhəmiyyət qazanıb. Yəni yaxşı təlimçi təhsili proqramı tibb təhsili proqramının uğuru üçün əvəzsiz amillərdən biri hesab olunur".

S.Cavadlının bildirdiyinə görə, tibb pedaqoqlarının əsas işi tələbə və köməkçi təhsili həyata keçirməkdirsə, digər tərəfdən onlar intensiv tədqiqat və xəstə baxım fəaliyyətləri ilə məşğuldurlar: "Bu mürəkkəb vəziyyətdə akademik və peşəkar bacarıqlarını artırmaq üçün "Pedaqoji peşəkarlığın inkişafı" təlim proqramlarından yararlanmaq professor-müəllim heyətinin fəaliyyətində də vacib şərtlərdən biridir.

Qeyd olunanların vacibliyini nəzərə alaraq, Azərbaycan Tibb Universitetində həyata keçirilmiş yeniliklərdən biri də məhz ötən ilin sentyabrında Tibb və sağlamlıq elmləri təhsili kafedrasının yaradılması oldu. Kafedranın tədrislə yanaşı, əsas fəaliyyətlərindən biri də universitetin professor və müəllim heyətinə təlimlərin keçirilməsidir. Kafedra fəaliyyətə başladığı 2022/2023-cü tədris ilində qış və yaz semestrlərində hər birində iki qrup olmaqla qeyd olunan təlimləri həyata keçirib. "Pedaqoji peşəkarlığın inkişafı" təlimlərinin proqramına "necə öyrədirik və yaxud necə öyrənirik?", həmçinin tədris proqramının hazırlanması, öyrənmə hədəflərinin müəyyən edilməsi, kiçik və böyük qruplarda, klinikada tədrisin necə təşkil olunması, ölçmə və qiymətləndirmə metodları, tədrisin planlanması, yazılı imtahanların təşkili və s. istiqamətləri əhatə edən mövzular daxil edilib. Ötən tədris ilində təşkil olunmuş təlimlərlə bağlı universitetimizin akademik personalı tərəfindən müxtəlif başlıqlarda bir sıra təlimlər keçirilib. "Davamlı olması faydalı olar", "Yeni tətbiqlərdən növbəti dərslərdə istifadə etməyi düşünürəm", "Böyük qruplarda yeni tədris metodunu mühazirəmdə tətbiq edirəm", "Tələbələr çox razı qaldılar", "Dərsin düzgün formatda qurulmasını, prezentasiyanın düzgün formatlaşdırıb təqdim etməyi öyrəndim" və s. kimi adlar altında keçirilən təlimlərə müsbət rəylər bildirilib".

Kafedra müdirinin sözlərinə görə, bu il də sentyabrın 5-dən etibarən eyni proqramı üzrə təlimlərə start verilib.

**Həyatımız boyu tez-tez işlətdiyimiz ifadələr var. Onların bir hissəsi də əmək fəaliyyəti ilə bağlıdır. Məsələn, "İş insanın cövhəridir", "İşləməyən dişləməz", "Səndən hərəkət, Allahdan bərəkət", "Bu günün işini sabaha qoyma", "Ayaq getməsə əl gətirməz" və s. Bu ifadələr bir tərəfdən insanın əməyinə verilən qiymətdirsə, digər tərəfdən fiziki aktivliyin sağlamlıqdakı rolunu özündə ehtiva edir. Təsadüfi deyil ki, bütün bunlar tibb alimlərinin araşdırmalarında da öz əksini tapır.**

# Dəli-dolu gənclər niyə passivləşib?

## ATU alimlərinin apardığı maraqlı araşdırma tələbələrin fiziki fəallığı ilə bağlı xoşagəlməz nəticələr ortaya çıxarıb

ATU-nun Qidalanma və tibbi ekologiya, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedralarının əməkdaşları da bu istiqamətdə maraqlı tədqiqat işi aparıblar. Bu barədə tədqiqat işinin rəhbəri, Qidalanma və tibbi ekologiya kafedrasının sabiq müdiri, dosent İbrahim Əhmədov "Təbib" qəzetinə açıqlama verib. Bildirib ki, təhsil ocaqlarında, o cümlədən həyatın bütün sahələrində informatika və innovasiya texnologiyasının geniş tətbiqi insanların, eləcə də tələbə gənclərin həyat tərzinə, hərəkətlərinin monotonluğuna və hipokineziya təsirinə məruz qalmalarına səbəb olur: "Tədqiqatlar göstərir ki, bütün dünyada olduğu kimi, ölkəmizdə də insanların fiziki fəallığı nəzərəçarpacaq dərəcədə aşağı olub, sutkanın 3%-nə belə çatmır və yaş artdıqca, bu göstərici daha da azalır. Passiv həyat tərzinin hər il dünyada 5 milyondan çox insanın vaxtsız ölümünə səbəb olduğu müəyyən edilib. Son dövrlərdə passiv həyat tərzi piylənmə, arterial hipertenziya, II tip şəkərli diabet, ürək-damar xəstəlikləri, beyin-qan dövranı çatışmazlığı, öd daşı, böyrək daşı xəstəlikləri, dayaq-oynaq sistemi patologiyaları, bədxassəli törəmələr və s. kimi qeyri-infeksion xəstəliklərin artmasına səbəb olub. Ölüm riskləri arasında fiziki passivlik 4-cü yerdə qərar tutur. Hazırda tələbələrin orqanizminin sərf etdiyi enerji nəzərəçarpan dərəcədə azalıb. Aktiv həyat tərzi orqanizmin hüceyrə, toxuma, üzv və sistemlərinin bioloji tamlığının inikasıdır. Hipodinamiya isə orqanizmin morfofunksional vəziyyətinin kəskin dəyişilməsinə, əzələlərin və sümüklərin atrofiyasına, maddələr mübadiləsinə ciddi təsir edir, zülalların sintezinin zəifləməsi fonunda zülalların parçalanmasının güclənməsinə, endokrin dəyişikliklərə, əsas mübadilənin və orqanizmin müqavimətinin nəzərəçarpan dərəcədə zəifləməsinə gətirib çıxarır. Nəticədə əmək qabiliyyətinin aşağı düşməsi, sinir fəaliyyətinin pozulması, nevrasteniya, astenik sindromla müşayiət olunur, yorğunluq, əsəbilik, baş ağrıları, yuxusuzluq kimi hallar inkişaf edir. Hipodinamiya zamanı yağ mübadiləsində də ciddi pozğunluqlar meydana çıxır, qanda xolesterinin səviyyəsi yüksəlir. Fəal həyat tərzi - fiziki fəallıq isə yüksəksıxlıqlı lipoproteidlərin müsbət balansına səbəb olur və orqanizmi ateroskleroz təhlükəsindən qoruyur".

Mütəmadi hipodinamiya vəziyyəti insanın reaksiyalarının, yaddaşının zəifləməsi, sümüklərdə kalsiumun miqdarının, dövr edən qanın həcmin azalması, miokardın gücünün və cinsi marağın zəifləməsi, əzginlik, apatiya ilə müşayiət olunur. Fiziki fəallıq insanların çətinlikləri asan dəf etməsinə imkan yaradır, fəal uzunömürlülüyü, orqanizmdə baş vermiş bütün funksional pozğunluqların bərpasını təmin etməklə vegetativ funksiyaları və maddələr mübadiləsini yaxşılaşdırmağın ən əlverişli və təbii üsulu hesab olunur. Hətta mülayim fiziki fəallıq zamanı belə, hipotalamus-hipofiz-böyrəküstü vəzlər sisteminin bütün həlqələri fəallaşır. Həvəslə həyata keçirilən fiziki aktivlik insanda yüksək əhval-ruhiyyə, şuxluq, həyat eşqi yaratmaqla güclü antistressogen təsir göstərir. Adət olunmuş fiziki fəallıq iş prosesləri və istirahət də daxil olmaqla insanın həyat qabiliyyətini, bunun üçün tələb olunan maddələrin təminat səviyyəsini və səciyyəsini tənzimləyir. Daha intensiv əmək fəaliyyəti, bədən tərbiyəsi və idmanla məşğul olan şəxslərin bədəninin demək olar ki, bütün əzələləri proseslərdə həmahəng iştirak edir. Passiv həyat tərzi keçirənlərdə, eləcə də yaşa dolduqca bədəndə mübadilənin ara məhsulları-şlakların toplanması prosesi sürətlənir. İntensiv fiziki fəaliyyət zamanı isə orqanizmdən şlakların asanlıqla xaric olması müşahidə olunur. Fiziki məşğələlər və idmanla mütəmadi məşğul olduqda, qanda eritrositlərin və hemoqlobinin miqdarı yüksəlir, qan oksigenlə zənginləşir, leykositlərin fəallığı artır, nəticədə infeksiyalara və soyuqdəymələrə qarşı orqanizmin müqaviməti yüksəlir. Fiziki fəaliyyət ağciyərlərin hava mübadiləsinin, toxumalar tərəfindən oksigenin mənimsənilməsinin yüksəlməsinə, qanın oksigenlə daha yaxşı zənginləşməsinə səbəb olur, həzmin, orqanizmin



istilik tənziminin yaxşılaşmasına, fiziki və psixoloji fəaliyyətin təminatına şərait yaradır. Bədən kütləsinin təxminən 50%-ni əzələlər təşkil edir. Onlar enerji tələbatını 20 dəfə və daha çox dəyişmək imkanına malikdirlər. Fiziki fəallıq zamanı təkcə skelet əzələləri deyil, həmçinin ürək və ağciyərlərin əzələlərinin də funksional imkanları nəzərəçarpan dərəcədə yüksəlir ki, nəticədə, ağciyərlərin hava mübadiləsinə, qanın oksigenlə daha yaxşı zənginləşməsinə, toxumalar tərəfindən oksigenin mənimsənilmə səviyyəsinin yüksəlməsinə şərait yaranır.

İ.Əhmədovun sözlərinə görə, tədqiqata İctimai səhiyyə fakültəsinin IV kursunda təhsil alan 68 nəfər tələbə cəlb edilib. Fəal anket sorğu üsulu ilə tələbələrin fiziki inkişaf göstəriciləri, həyat tərzləri, fiziki fəallıqları və sərf etdikləri enerjini əks etdirən materiallar toplanılıb, statistik işlənilib və təhlili həyata keçirilib. Tələbələrin sərf etdikləri enerjini müəyyən etmək üçün, onlara həftənin 4 gününü əhatə edən (biri hökmən istirahət günü olmaqla) xronometraj cədvəlləri paylanılıb. Xronometraj cədvəlində gündəlik həyatda təsadüf edilə biləcək 80-dən artıq fəaliyyət növü göstərilib. Tələbələr cədvəli doldurarkən onların gün rejimində siyahıda olmayan fəaliyyətə təsadüf etdikdə, anketlərində bu fəaliyyəti və ona sərf etdikləri vaxtı da cədvələ əlavə ediblər.

Tədqiqat qrupu tələbələrin sutka ərzindəki fəaliyyətlərini enerji sərfi baxımından uyğunluqları nəzərə alınmaqla qruplaşdırıb. Məlum olub ki, onların şəxsi gigiyenaya sərf etdikləri müddət sutkalıq vaxtın 7,2%-ni, səhər gimnastikası və sərbəst hərəkətlər isə cəmisi 0,4%-ni təşkil edib. Onlar universitetdə tədris proseslərinə (mühazirə, təcrübə və seminar məşğələləri) sutkanın 18,1%-i, dərslərə hazırlaşmağa isə 7,1%-i qədər vaxt ayırıblar. Nəticələrdən görünür ki, gənclər təsərrüfat işlərinə (bazarlıq, xörək hazırlamaq, mənzildə yır-yığış, həyətyanı sahədə iş) sutkanın 6,0%, piyada və nəqliyyatla yol getməyə (müvafiq olaraq) 3% və 4,2%, qida qəbuluna 4,7%, yuxuya 32%, dincəlmə və müxtəlif əylənclərə 12,8%, bədən tərbiyəsi və idmana, müxtəlif oyunlara isə cəmisi 0,3%-i səviyyəsində vaxt sərf ediblər.

Nəticələrin təhlili göstərir ki, tələbələrin böyük əksəriyyətinin fiziki fəallığı arzuolunmaz səviyyədədir. Fəal həyat tərzinin gənclərin fiziki və zehni inkişafları, tədris müvəffəqiyyətləri, sağlamlıq göstəriciləri və həyat keyfiyyətinə təsir göstərən aparıcı amil olması barədə kifayət qədər nəzəri məlumatlara malik gələcək həkimlərin belə passiv həyat tərzinə malik olmaları təəssüf doğurur.

**A.KAMRANOĞLU**

# Görkəmli alim 60 illik yubileyini qeyd edir

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Nuru Yusif oğlu Bayramovun 60 yaşı tamam olur.**



N.Bayramov 17 sentyabr 1963-cü ildə Qərbi Azərbaycanın Basarkeçər rayonunun Nərimanlı kəndində anadan olub. 1980-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olub, 1986-cı ildə fərqlənmə diplomu ilə bitirib. 1986-88-ci illərdə I Cərrahi xəstəliklər kafedrasında klinik ordinatura keçib. 1988-ci ildə İ.M.Seçenov adına Moskva Tibb Akademiyasında aspiranturaya daxil olub, 1991-ci ildə aspiranturanı vaxtından əvvəl bitirərək, tibb elmləri namizədi elmi adı üçün dissertasiya işini müdafiə edib. 1991-94-cü illərdə I Cərrahi xəstəliklər kafedrasında assistent vəzifəsində işləyib. O, Qarabağ müharibəsi zamanı Tərtərdə 2 saylı Hərbi-səhra hospitalında və M.Nağıyev adına Təcili Tibbi Yardım Xəstəxanasında yaralılara cərrahi xidmətin göstərilməsində aktiv iştirak edib. 1994-cü ildə "Qaraciyər cərrahiyyəsi və transplantasiyası" mövzusu üzrə elmi-tədqiqat işləri aparmaq, "Laparoskopik, qastroenteroloji və onkoloji cərrahiyyə" üzrə praktik təcrübə keçmək üçün Türkiyə Respublikasına ezam olunub. O, 2000-ci ilə qədər Yüksək İxtisas Xəstəxanasında, Başkənd Universiteti Orqan Nəqli Klinikasında və Ankara Universiteti Cərrahi Onkologiya Bölümündə elmi-tədqiqat işləri aparıb və praktik təcrübə keçib. 1996-98 illərdə Türkiyənin Yüzüncü Yıl və Kırıkkale universitetlərinin Ümumi cərrahiyyə kafedralarında dosent kimi, kafedra müdiri vəzifəsində işləyib.

1999-cu ildə tibb elmləri doktoru alimlik dərəcəsi alan N.Bayramov 2001-ci ildə Azərbaycana qayıdaraq Mərkəzi Klinik Xəstəxananın və Mərkəzi Gömrük Hospitalının qurulmasında, kadr hazırlığında, ümumi, laparoskopik və transplantasiya cərrahiyyəsinin təşkilində yaxından iştirak edib. Həmin il ATU-nun I Cərrahi xəstəliklər kafedrasında dosent, 2004-cü ildə professor, 2012-ci ildə isə kafedra müdiri vəzifəsinə seçilib, hazırda da bu vəzifədə işləyir.

Professor Nuru Bayramov 2014-cü ildə AMEA-nın müxbir üzvü seçilib. 2015-16-cı illərdə ATU Tədris Cərrahiyyə Klinikasının direktor əvəzi olub. 2006-cı ildən I Müalicə-profilaktika fakültəsinin və ATU Elmi şuralarının üzvüdür. II Qarabağ müharibəsi dövründə ATU TCK, Mərkəzi DTX və Mərkəzi Gömrük hospitallarında yaralılara cərrahi yardımın təşkilində aktiv fəaliyyət göstərib. O, 2015-ci ildən Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvüdür. 2014-2021-ci illərdə Tibb üzrə Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının sədri olub, hazırda isə üzvüdür. 2013-19-cü illərdə ATU-nun "Cərrahiyyə" üzrə Problem Komissiyasının sədri olub. Professor N.Bayramov bir çox beynəlxalq cəmiyyətlərin üzvüdür: Avropa Hepatoloqlar Cəmiyyəti (EASL), Avropa Endoskopik Cərrahiyyə Cəmiyyəti (EAES), Avropa Transplantasiya Cəmiyyəti (ESOT), Beynəlxalq Qaraciyər Transplantasiyası Cəmiyyəti (ILTS), Beynəlxalq Qastroenteroloqlar və Onkoloji Cərrahlar Cəmiyyəti (IASGO), Beynəlxalq Piylənmə Cərrahiyyəsi Federasiyası (IFSO), Klinik Robotik Cərrahlar Cəmiyyəti (CRSA) və s. O, 400-dən çox elmi işin, 40 kitabın, 14 metodik tövsiyənin, 11 ixtira və səmərələşdirici təklifin müəllifidir. İki qrant layihəsinin iştirakçısıdır.

Onun rəhbərliyi altında 8 dissertasiya işi müdafiə olunub. Hazırda qaraciyər transplantasiyası, laparoskopik, metabolik cərrahiyyə və kök hüceyrələr üzrə elmi tədqiqatlarını davam etdirir. 2010-cu ildə Səhiyyə Nazirliyinin Fəxri Fərmanı, 2022-ci ildə Azərbaycan Gömrük Komitəsinin 30 illik yubiley medalı ilə təltif olunub. 1999-cu ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

ATU-nun I Cərrahi xəstəliklər kafedrasının kollektivi görkəmli alimi 60 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona möhkəm sağlamlıq, uzun ömür və yaradıcılıq uğurları arzulayır!

**Azərbaycan Tibb Universitetinə ağır itki üz verib. Tanınmış uşaq cərrahı, ATU-nun Uşaq cərrahlığı kafedrasının professoru Elmira Pənahova uzun sürən xəstəlikdən sonra 71 yaşında dünyasını dəyişib.**

# Tanınmış alim dünyasını dəyişib



Elmira Sədi qızı Pənahova 1952-ci ildə Qərbi Azərbaycanın Kalino rayonunda ziyalı ailəsində anadan olub. O, 1969-cu ildə orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Pediatriya fakültəsində təhsil alıb. Əmək fəaliyyətinə 1975-ci ildə M.Nağıyev adına Təcili Yardım xəstəxanasında başlayan Elmira xanım müxtəlif illərdə həmin xəstəxanada həkim-reanimatoloq, uşaq cərrahı və baş laborant vəzifələrində çalışıb. O, 2010-cu ildən ömrünün son günlərinədək ATU-nun Tədris Cərrahiyyə Klinikasında Uşaq cərrahiyyəsi şöbəsinin professoru kimi fəaliyyət göstərirdi.

E.Pənahova 1986-cı ildə namizədlik, 2006-ci ildə isə doktorluq dissertasiyasını müdafiə edib. O 1987-ci ildə keçmiş SSRİ Xalq Nailiyyətləri Sərgisinin gümüş medalı ilə təltif edilib. Professor 82 elmi məqalə, 1 ixtira tezis, 5 səmərələşdirici təklif və 2 metodik tövsiyənin müəllifi olub. Onun rəhbərliyi altında üç elmi monoqrafiya nəşr edilib. O, 1988-ci ildə Pediatriya fakültəsinin dekanı işləyib.

Fəaliyyəti dövründə həmişə qayğıkeş, əməksevər və diqqətli həkim-müəllim kimi doğma kollektivin, eləcə də tələbələrinin dərin rəğbətini qazanan Elmira xanımın xatirəsi onu tanıyanların qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

**ATU-nun rektorluğu və Uşaq cərrahlığı kafedrasının kollektivi**

# Qocaman təhsil işçisi vəfat edib

**ATU-nun Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının sabiq dosenti, əczaçılıq elmləri namizədi Təhməzov Fərman Əlibala oğlu ömrünün 90-cı ilində vəfat edib.**



F.Təhməzov 1933-cü il oktyabrın 30-da anadan olub. Bakı Əczaçılıq texnikumunu, Tibb İnstitutunun Əczaçılıq fakültəsini və aspiranturasını bitirib. 1965-ci ildə dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək əczaçılıq elmləri namizədi elmi dərəcəsinə layiq görülüb. 1965-ci ilin oktyabrından "Dərman formalarının texnologiyası" kafedrasında assistent, baş müəllim, sonra isə dosent vəzifələrində çalışıb. 1983-1992-çi illərdə Əczaçılıq fakültəsinin dekanı, 1990-2000-ci illərdə isə kafedranın müdiri olub. 60-dək elmi məqalənin, o cümlədən bir neçə dərslik və dərs vəsaitinin müəllifi olan Fərman müəllim işlədiyi müddətdə fakültənin elmi şurasının üzvü idi.

Bir neçə nəsil tibb işçilərinin müəllimi omuş F.Təhməzovun xatirəsi onu tanıyanların qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

**ATU-nun rektorluğu və Əczaçılıq fakültəsinin kollektivi**

# Fizioterapevtlərə hər zaman ehtiyac var

## Nurlana Əliyeva: Vətən müharibəsi və ondan sonrakı dövrlərdə 800-dən çox yaralıya xidmət göstərmişik



**8 Sentyabr - dünyada Beynəlxalq Fizioterapevtlər Günü kimi qeyd olunur. İnsanların sağlamlığının keşiyində dayanan bu peşənin sahiblərinə ölkəmizdə də böyük ehtiyac var.**

Xüsusilə 44 günlük Vətən müharibəsində bunu bir daha gördük. İstər müharibə davam edərkən, istərsə də müharibədən sonrakı dövrdə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Fizioterapiya və reablitasiya şöbəsinin əməkdaşları yüzlərlə qazimizin sağlamlığının reablitasiya olunmasında xüsusi fədakarlıq nümayiş etdirdilər. Adıçəkilən şöbədə müalicə alan qazilərimizin əksəriyyəti sağalaraq klinikadan məmnun, tibbi personaldan razılıqla doğmalarının yanına döndülər.

Şöbənin müdiri Nurlana Əliyeva bizimlə söhbətində fizioterapevtlərin səhiyyədə ən önəmli peşə sahiblərindən biri hesab olunduğunu qeyd edib: "Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 44 günlük müharibədə Ali Baş Komandanımızın rəhbərliyi və cəngavər oğlanlarımızın qəhrəmanlığı sayəsində qələbə qazandıq. Tədris Cərrahiyyə Klinikasının Fizioterapiya və reablitasiya şöbəsində müharibə dönəmində və müharibədən sonrakı dövrlərdə 800-dən çox yaralı müalicə olundu. Fizioterapevtlər qazilərin sağalması, normal hərəkətinin bərpası üçün əllərindən gələni etdilər.

Yaralanmış döyüşçülərimizn reabilitasiyasında fizioterapevtlər böyük rol oynadı. Proses belədir ki, həkim baxır, diaqnozu təsdiq edir, o işlərin həll olunmasında ən yaxın köməkçi isə fizioterapevtlərdir.

Eləcə də idman yarışlarında xəsarət alan idmançılarımızın zədələrinin aradan qaldırılmasında fizioterapevtlərin rolu danılmazdır. COVİD-19 pandemiyası zamanı xəstələrin şəfa tapmasında da fizioterapiyadan istifadə öz sözünü dedi".

N.Əliyeva rəhbərlik etdiyi şöbədə fizioterapiya və reabilitasiya ilə yanaşı, digər prosedurların da tətbiqindən söhbət açıb. Bildirib ki, PRP deyilən müalicə metodu var: "Xəstənin öz qanı sentrifuqada xüsusi üsulla çökdürülür, trombositlər ayrılır və daha sonra tələb olunan nahiyələrə daxil edilir. Bu metod böyük effektə malikdir. Saç tökülməsinin qarşısının alınması, baş dərisinin qidalanması, hüceyrələrin və üz dərisinin yenilənməsində ondan geniş istifadə edirik. Qeyd edim ki, siz bu metodun reklamı ilə müxtəlif məkanlarda qarşılaşa bilərsiniz. Amma onların əksəriyyəti ucuz avadanlıqlarda, qeyri-peşəkar şəxslər tərəfindən olunur. Bizdə isə bu proses ən müasir avadanlıqda, tam dəqiqliklə və xüsusi vurğulayım ki, ikiqat olmaqla həyata keçirilir".

Şöbə müdiri bu sahədə təsadüfi, naşı, heç bir təhsili və savadı olmayan insanların işləməsindən təəssüfləndiyini bildirib. Qeyd edib ki, bəzi gözəllik salonlarında heç bir həkim göstərişi olmadan insanlara fizioterapiya proseduru tətbiq olunur. Nəticədə bəzən xoşagəlməz hallar ortaya çıxır.

N.Əliyeva artıq bir neçə ildir ki, Tibb Universitetində bu sahə üzrə mütəxəssislər hazırlanmasına da toxunub: "Mən çox sevinir və fərəh duyuram ki, artıq fizioterapevtlərimiz bizim universitetdə hazırlanır, öz ixtisaslarını dərindən mənimsəyirlər. Sevindirici hallardan biri də odur ki, son vaxtlar gənclərimiz arasında bu sahəyə maraq xeyli yüksəlib".

## Etibarsız sayılır

Ahmet Hakan Aslan Mehmet Sait oğlu (qrup 117A11); Elaheh hadi Chalak Khalil (qrup 221A14a); Yazıcı Eyup Selcuk Murad oğlunun (qrup 221A13b) tələbə bileti, Yıldız Boyacı Mahmut qızının (qrup 218A7b) müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının əməkdaşları kafedranın müdiri, dosent Şəhla Balayevaya anası

**Rəna Rəhimovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının əməkdaşları kafedranın sabiq dosenti

**Fərman müəllimin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının əməkdaşları Uşaq cərrahiyyəsi kafedrasının professoru

**Elmira Pənahovanın**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın baş laborantı Lamiyə Məmmədovaya anası

**Elmira Pənahovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın laborantı Qızdəst Şahımovaya atası

**Şamil bəyin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın laborantı Pəri Həsənovaya anası

**Mərziyyə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM-in kollektivi iş yoldaşları Elçin Təhməzova atası

**Fərman müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın assistenti Gülxanım Əliyevaya əzizi

**Ceyhun müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının əməkdaşları kafedranın laborantı Ülkər Nuruzadəyə atası

**Elsevən Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əczaçılıq toksikologiyası və kimya kafedrasının əməkdaşları kafedranın dosenti Eldar Əhmədova bacısı

**Dilşad xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0015
Sayı 800